# Hər şey əvvəlkindən də gözəl olacaq

## İlham Əliyev azad etdiyi Kəlbəcəri cənnətə çevirir

◆ Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər rayonuna səfəri



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonuna səfər ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər Şəhər Təhsil Kompleksində aparılan işlər və bu il açılacaq modul tipli məktəbin layihəsi, Kəlbəcər şəhərində 524 ailəlik yaşayış kompleksinin tikintisi ilə tanış olub, "İstisu" mineral su zavodunun açılışında iştirak ediblər.

Dövlət başçısı həmçinin Kəlbəcərdə "Zar" KSES-in açılışında iştirak edib və SCADA sistemi vasitəsilə Göygöl rayonunda "Toğanalı" KSES-in açılışını edib, "İstisu" yarımstansiyasının açılışında iştirak edib, "İstisu" Müalicə-İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olub, Kəlbəcər rayonunun İstisu qəsəbəsinin təməlini qoyub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərdə Tərtər çayı üzərindəki "Yuxarı Vəng" Su-Elektrik Stansiyasının açılışında iştirak edib, Kəlbəcərdəki Xudavəng monastır kompleksinə baş çəkiblər. Kəlbəcərin Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolundakı 4-cü tuneldə və bu yolun 15,2 kilometrlik hissəsində görülən işlərlə tanışlıq olub.

Ölkə Prezidenti Kəlbəcər şəhərində inzibati binanın təməlini qoyub, 524 ailəlik yaşayış kompleksinin tikintisi ilə tanış olub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərdə "İstisu" mineral su zavodunun açılışında iştirak ediblər.

→ 2-5

Azərbaycan.- 2024.- 3 sentyabr, № 190.- S.1.